# "Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biridir"

## Bu reallığı Prezident İlham Əliyev yanvarın 28-də keçirdiyi müşavirədə bir daha bəyan etdi

**Prezident İlham Əliyevin sədrliyi ilə yanvarın 28-də keçirilmiş müşavirənin nəqliyyat məsələlərinə həsr edilməsi təsadüfi deyil. Ən azından ona görə ki, hazırda yenidən qurulan dünya düzənində nəqliyyat dəhlizləri strateji önəm daşıyır. Azərbaycan isə bu prosesdə əhəmiyyətli mövqe tutan ölkəyə çevrilib. "Şərq-Qərb", "Şimal-Cənub" marşrutlarında açar ölkə Azərbaycandır. Hər iki qlobal ticarət dəhlizinin səmərəli fəaliyyəti ölkəmizin bu işə hazırlığından asılıdır.**



Ölkəmizin yerləşdiyi ərazi dünyanın yeni ticarət dəhlizlərinin inkişafında çox əhəmiyyətli coğrafiyadır. Özü də üstünlüyümüz təkcə təbii amillərlə bağlı deyil. Ölkəmiz illər öncə bu işə xüsusi diqqət yetirib. Dövlət başçısının müşavirədə vurğuladığı kimi, ardıcıl olaraq beynəlxalq dəhlizlərin Azərbaycan ərazisindən keçməsi üçün səylər göstərilib, praktik işlər görülüb, tərəfdaş ölkələrlə əlaqələr qurulub. Prezident İlham Əliyevin nəqliyyat diplomatiyasının əsas hədəfi bu işə daha çox ölkə cəlb etməklə dəhlizin səmərəliliyini artırmaq olub.

Prezident müşavirədə ölkəmizin müasir dünyada qlobal ticarət dəhlizləri ilə bağlı görülən işlər və onun beynəlxalq əhəmiyyəti barədə demişdir: "Bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil. Hazırda bizim ərazimizdən "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri keçir. Bu dəhlizlər üzrə daşınan yüklərin həcmi ildən-ilə artır. Yüklərin daha səmərəli daşınması üçün fiziki infrastrukturla yanaşı, digər addımlar da atılır, o cümlədən rəqəmsallaşma məsələlərinə diqqət göstərilir. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradılmışdır və ortaq müəssisələr, müştərək müəssisələr qurulmuşdur. Bir sözlə, bu gün Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biridir".

Dünyada ölkəmizin əhəmiyyətli nəqliyyat qovşağı olması bir amillə də fərqlənir. Belə ki, dünyada nəqliyyat daşımalarında vacib rol oynayan ölkələrin adətən okean və açıq dənizlərə çıxışları və yaxşı yük qəbuletmə - yükötürmə limanları olur. Azərbaycanda isə bunun əksi müşahidə edilir. Yəni Xəzər dənizinin qapalı olması dəhliz üzərindən yükötürməni çətinləşdirir. O üzdən dəhlizin fəaliyyətə başladığı ilk dövrlərdə Orta dəhlizin perspektivinə şübhə ilə yanaşanlar vardı.

Prezident İlham Əliyev bu məsələni vaxtında həll etmək üçün çox iş gördü. Həmin işlərin sayəsində bu gün Azərbaycanda Şərqdən və Qərbdən gələn yüklərin Xəzər dənizi üzərindən aşırılması üçün kifayət qədər bərə gəmiləri var. Yəni yüklərin Xəzərin bir sahilindən digərinə ötürülməsi üçün heç bir maneə yoxdur. Başqa sözlə, vaxtında görülən qətiyyətli tədbirlər sayəsində indi Xəzər Dəniz Donanması Orta dəhlizin fasiləsiz işləməsini təmin edir.

Dövlət başçısı müşavirədə onu da bildirdi ki, əvvəllər Xəzər dənizi üçün gəmilər xarici ölkələrdə inşa olunurdu. Sözsüz ki, belə hal müəyyən asılılıq yaradırdı. Bunun üçün Prezident İlham Əliyev tərəfindən gəmilərin ölkəmizdə inşası barədə qərar verildi. Artıq Azərbaycanda ölkəmizin ehtiyacını ödəmək üçün bütün növ gəmilər inşa olunur. Yəni nə vaxtsa gəmilərlə bağlı sifarişimizin yerinə yetiriləcəyini gözləmirik, planlı şəkildə ölkənin ehtiyacına uyğun onları özümüz inşa edirik.

Dünya logistikasında ən vacib amillərdən biri də yüklərin limanlarda tez yüklənib boşaldılmasıdır. Çünki yükdaşımada vaxt vacib şərtdir. Eyni zamanda ticarət marşrutlarında yüklərin təhlükəsiz daşınması və daşınma xərclərinin aşağı olması da mühüm məsələlərdir. Yəni yüklərin mənzil başına çatdırılması logistika sahəsində üç qızıl qaydadan ibarətdir.

Azərbaycanda yüklərin daşınması əməliyyatını həyata keçirmək üçün müasir dünya standartlarına cavab verən yeni dəniz ticarət limanı tikilib. Bu liman Orta dəhlizin mühüm halqalarından biridir, ən əhəmiyyətlisi isə həmin liman logistika işlədilən "dar boğazlar" probleminin yaranmasına imkan vermədi. Yəni tranzit yüklərin daşınmasında yarana biləcək ləngiməni aradan qaldırdı.

Yeni ticarət limanının birinci fazasında yükaşırma qabiliyyəti 15 milyon ton nəzərdə tutulurdu. Ancaq məlum oldu ki, Orta dəhlizlə yüklərin daşınmasının həcmi bundan çox olacaq. Buna görə dövlət başçısı limanın ikinci fazasının tikilməsi barədə göstəriş verdi. Məqsəd limanın yükaşırma qabiliyyətini 25 milyon tona çatdırmaqdır. Prezident İlham Əliyev müşavirədə gələcəkdə yüklərin bu dəhlizlə daşınmasının həcminin daha yüksək olacağını bildirərək demişdir: "Biz limanın imkanlarını 25 milyon tona çatdırmalıyıq və ola bilsin bu da bizə yetməyəcək. Çünki "Şərq-Qərb" nəqliyyat dəhlizi üzrə yüklərin həcmi o qədər sürətlə artır ki, biz bu işləri də bu artıma görə etməliyik. Bütün bu nəqliyyat məsələlərini bir mərkəzdə cəmləşdirmək üçün mənim qərarımla bu yaxınlarda yeni qurum - AZCON qurumu yaradıldı, hansı ki, bütün bu əlaqələndirmə və perspektiv inkişaf planını, o cümlədən sərmayə qoyuluşunu - bütün bu məsələləri nəzərə alacaqdır".

Orta dəhlizlə daha çox yük daşınması üçün Zəngəzur dəhlizinin açılması da vacibdir. Lakin Ermənistan üç dövlətin imzaladığı 10 noyabr Bəyanatı ilə üzərinə götürdüyü öhdəliyi yerinə yetirmir. Baxmayaraq ki, bu, qonşu ölkə üçün də çox vacibdir. Məlumdur ki, Ermənistan de-yure müstəqil ölkə olsa da, heç vaxt de-fakto müstəqil dövlət kimi formalaşa bilməyib. Əvvəllər şimal qonşumuzun bir sözünü iki etməyən Ermənistan indi Qərbdən gələn hər bir əmrə ləbbeyk deyir. Xüsusən Fransadan gələn hər bir təlimatı hərfinəcən yerinə yetirir. Bu səbəbdən Zəngəzur dəhlizinin açılması düyünə düşüb. İndi Ermənistan "Arşın mal alan"dakı kimi, "oxu, oxuma" vəziyyətindədir. Qərb deyir açma, Rusiya və Çin təklif edir ki, açmalısan. Elə cənub qonşumuz İran da Zəngəzur dəhlizinin əleyhinə olanların sırasında yer alıb.

Bu gün yenidən qurulan dünya düzənində ticarət dəhlizlərinə maraq strateji xarakter daşıyır. Odur ki, Cənubi Qafqazda bir çox siyasi proses cərəyan edir. Elə Gürcüstanda baş verən siyasi proseslərin bir səbəbi də Orta dəhlizə nəzarət etməklə bağlıdır. Qərb hələlik bu istəyinə çata bilməyib, lakin əl də çəkmir. Gürcüstandakı siyasi iqtidar hələlik buna qarşı direniş göstərir, proseslərin isə nə ilə bitəcəyini zaman göstərəcək.

Cənubi Qafqazda baş verən siyasi proseslərə rəğmən Azərbaycan dövləti haqlı tələbindən yan keçmir. Prezident İlham Əliyev müşavirədə bir daha bəyan etdi ki, Ermənistan istəsə də, istəməsə də, Zəngəzur dəhlizi açılacaq. Dövlət başçısının vurğuladığı kimi, ölkəmizin Ermənistana qarşı ərazi iddiası yoxdur, sadəcə, üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsini tələb edir.

Azərbaycan Ermənistanın nə deyəcəyini gözləmədən Zəngəzur dəhlizi ilə bağlı hazırlıq işlərini sürətlə davam etdirir. Hazırda Horadiz-Ağbənd dəmir yolunun 60, Bərdə-Ağdam dəmir yolunun isə 94 faizi tikilib. Yaxın zamanda Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün ölkəmizdə görülən tikinti texniki işlər başa çatacaq. O vaxta qədər isə siyasi danışıqlar yolu ilə Ermənistanı buna məcbur edəcəyik.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 31 yanvar (№ 21).- S.13.